# Mühazirə № 5

**Mövzu:**Türk dillərinin təsnifi və genealoji bölgüsü

**Plan:**

5.1.Türk dillərinin təsnifi;

5.2.Türk dillərinin genealoji bölgüsü.

## 5.1.Türk dillərinin təsnifi

Türk dillərinin təsnifi tarixi çox qədimdir.Türk dilləri müxtəlif əlamətlər əsasında təsnif edilmişdir.Coğrafi əlamətlər (M.Kaşğari,V.A.Boqoroditski, İ.N.Berezin, V.V. Radlov,F.Y.Korş,L.Ligeti və b.),coğrafi,fonetik-qrammatik əlamətlər (A.N.Samoyloviç) ,tarixilik baxımından (S.Y.Malov),fonetik,leksik-qrammatik fərqlərin türk dillərinin tarixi ilə əlaqəsini nəzərə almaqla (N.A.Baskakov) movcud olan təsniflər türkoloji dilçilikdə birmənalı qarşılanmamışdır.Bu cür təsniflərin hər biri uzun müddət tənqidə məruz qalmışdır.

Türk dillərinin təsnifi zamanı əsasən aşağıdakı əlamətlər nəzərə alınmışdır:

1.Etnik-genioloji-mənşə prinsipi ilə təsnif etmə (B.Çobanzadə,Y.Nemet, L.Legeti, G.Dörfer,F.Zeynalov və b.);

2.Tarixi inkişaf prinsipi ilə təsnif etmə (S.Y.Malov,N.A.Baskakov,K.Qrenberq, Təhsin Banquoğlu və b.);

3.Coğrafi ərazi prinsipi ilə təsnif etmə (V.V.Radlov,F.Y.Korş, V.A.Boqoroditski, V.Şott,Q.Ramstedt,Q.Menqes,A.N.Samolyoviç).

Göstərilən prinsiplər üzrə aparılan təsniflərin heç birində vahid bir prinsip gözlənilməmişdir.Bu prinsiplərin hər birində digərlərinə də yer verildiyi,istinad olunduğu müşahidə olunur.

Türk dilləri M.Kaşğari, İ.N.Berezin, V.V.Radlov, F.Y.Korş, A.N.Samoyloviç, B.Çobanzadə, V.A.Boqorodotski, S.Y.Malov, A.N.Baskakov, V.Şott, R.Rask,M.Miller, A.S.Kikobava,Y.Nemet,Q.Ramstedt,M.Resenen,L.Legeti,K.Qrönberq,R.Arat,T.Banquoğl u,Q.Menqes,İ.Bentsinq,G.Dörfer,F.Zeynalov,A.Qurbanov və başqaları tərəfindən təsnif edilmişdir.

Türk dillərinin təsnifi problemi ilə orta əsrlərdən məşğul olmuşlar.M.Kaşğari türk tayfalarını dörd qrupa bölmüşdür: 1) peçenek;2) qıpçaq,oğuz, yemek, başqırd, basmıl, qay, yabaqu, tatar, qırğız; 3) çıqıl, tuxsi,yağma, iqrar, çaqur,çumul,uyğur,tanqut,xatay; 4) tabğaç.

Türk dillərinin təsnifi ilə XIX əsrdə məşhur rus türkoloqlardan V.V.Radlov, N.İ.İlminskiy,İ.N.Berezin,N.A.Aristov,N.F.Katanov XX əsrin əvvəllərində F.E.Korş, N.Samayloviç,nisbətən sonralar V.A.Boqoroditski,S.E.Malov, İ.A.Batmanov və başqaları məşğul olmuşlar.

İ.N.Berezin 1848-ci ildə türk dillərini aşağıdakı kimi təsnif etmişdir:

I.Cağatay və ya Şərqi Türkistan dialektləri:uyğur,kuman,çığatay,özbək, türkmən, Kazan tatarları.

II.Tatar və ya cənub (qıpçaq) dialektləri:qırğız,başqırd,qumuq,qaraçay,mişar, noqay,sibir tatarları.

III.Türk və qərb dialektləri: Dağıstan, Azərbaycan, Krım, Anadolu,Konstantinapol, Rumeli.

V.V.Radlov 1881-ci ildə türk dillərini belə təsnif etmişdir:

I.Şərq qrupu:Altay,teleut,Abakan,koybol,qızıl,tölös,beltir,barabin, küyerik,çulum, tuba,qaraqaş,uryanxay (tuva),karaim,uyğur dilləri.

II.Qərb qrupu:qırğız,qaraqalpaq,başqırd,Bolqaboyu tatarlar,noqay dilləri.

III.Orta Asiya qrupu:Tarançin,Hami,Aksu,Kaşğar,Yarkənd,Sart,Kokant,Zərəfşan özbəkcəsi,Buxarada və Xivədə yaşayan türklərin dilləri.

IV.Cənub qrupu:Türkmən,qumuq,Qaraçay,,balkar,Azərbaycan,türk (Anadolu və Rumeli dialektləri),qaqauz və Kırım tatarlarının dilləri.

Türkologiyada türk dillərinin təsnifi ilə bağlı ən geniş yayılmış bölgü A.N.Samoyloviçə məxsusdur.O,1922-ci ildə türk dillərini altı əsas qrupa ayırmışdır:

I.R-qrupu:çuvaş,bulqar dilləri

II.D-qrupu: uyğur və ya şimal-şərq qrupu.Bu qrupa üç dila ailəsi daxil edilmişdir: t-qrupu:yakut;d-qrupu:soyon,qarakas,uryanxay,salar,Orxon-uyğur;z-qrupu:koybol,kamasin, sarı uyğur,saqay,küyerik,kaça,beltir,şor,qızıl.

III.Tay qrupu:qıpçaq və ya şimal-şərq dilləri:Altay,qırğız,qumuq,Qaraçay-balkar, karaim,tatar,başqırd,qazax,noqay dilləri.

IV.Tağlıq rqupu:çığatay və ya cənub-şərq dilləri:Şərqi Türküstan,özbək,qara tatarlar.

V.Tağlı qrupu:qıpçaq-türkmən və ya orta qrup:Xarəzm özbəklərinin dialektləri.

VI.Ol qrupu:türkmən və ya cənub-qərb qrupu dilləri:Azərbaycan,türkmən,türk, qaqauz dilləri.

N.A.Baskakov 1952-ci ildə türk dillərini qərb və şərqi hun qruplarına bölmüşdür. 1961-ci ildə B.A.Serebrennikov N.A.Baskakova tənqidi yanaşaraq türk dillərini dörd qrupa bölmüşdür:Bu tənqiddən sonra N.A.Baskakov türk dillərini altı qrupa ayırmışdır:

I.Bulqar qrupu:qədim bulqar,xəzər və yeni çuvaş dilləri.

II.Oğuz (cənub-qərb) qrupu:türkmən,Kazan tatar,Azərbaycan,türk dilləri.

III.Qıpçaq (şimal-qərb) qrupu:Krım tatar,başqırd,qazax,karaim,kumuk, noqay, qaraçay,qaraqalpaq dilləri.

IV.Karluq (cənub-şərq) qrupu:özbək,müasir uyğur dilləri.

V.Uyğur (şimal-şərq) qrupu:yakut,şor,xakas dilləri.

VI .Qırğız-qıpçaq qrupu:qırğız,altay dilləri.

Türk dillərinin təsnifi ilə məşğul olmuş Qərb türkoloqlarının mövqeləri rus türkoloqlarından o qədər də fərqlənməmişdir.Fin alimi Q.İ.Ramstedt türk dillərini altı qrupa ayırmışdır.Onun bu təsnifi A.N.Samoyloviçin bölgüsündən az fərqlənmişdir.

M.Resenen türk dillərini təsnif edərkən Q.İ.Ramstedtin təsnifini əsas götürməklə yanaşı,bir sıra dəqiqləşmələr də aparmışdır.

N.Poppe səthi bir şəkildə türk dillərinin təsnifi ilə bağlı fikir söyləmişdir.O,dillərini iki əsas qrupa ayırmışdır:1) r-qrupu dilləri:volqa-bulqar (qədim) və müasir çuvaş dilləri; 2) z-qrupu dillərinə yerdə qalan digər türk dilləri daxildir.N.Poppenin fikrincə,yalnız ikinci əsas qrupu altı qrupa ayırmaq mümkündür.

**5.2.Türk dillərinin genealoji bölgüsü**

Dillərin genealoji bölgüsü tarixi-müqayisəli metoda əsaslanır.Bu bölgüdə dillər ailələrə,ailələr budaqlara,budaqlar isə qruplara bölünür.

B.Çobanzadə V.V.Radlova əsaslanaraq türk dillərini dörd qrupa bölmüşdür:

I.Şərq qrupu:altay,baraba,şimal Altay,Abakan ləhcəsi,göyrik,çulum ləhcəsi,suyut ləhcəsi,karakas ləhcəsi,uyğur ləhcəsi.

II.Qərb qrupu:a) qırğız,qaraqırğız,qazax,qaraqalpaq dilləri;b) İrtış ləhcəsi: qurat, kurdağ,tubul,Tumen şivəsi;c) başqırd dili:step,dağ şivələri;ç) Volqa,yaxud şərqi Rusiya ləhcəsi:koma,qazax şivələri.

III.Orta Asiya ləhcəsi və şivələri:cığatay,yarkənd,Ağsu,özbək dili (Zərəfşan vadisi ləhcəsi,Buxara və Xivə şivəsi).

IV.Cənub-qərb qrupu:türkmən,Azərbaycan,Anadolu türkmənləri,Krım tatarlarının dilləri və Osmanlı ləhcəsi

Türk dillərinin təsnifi qədim dövrlə bağlıdır.Hələ XI əsrdə M.Kaşğarinin apardığı təsnifatda türk tayfalarının coğrafi yerləşməsi əsas götürülmüşdür.

İ.N.Berezinin,V.V.Radlovun və F.Y.Korşun tərəfindən verilmiş bölgülər *coğrafi əlamətlərə* əsaslanmış,dörd dil ailəsinə bölmüşdür.

A.N.Samolyoviç ilk dəfə olaraq coğrafi əlamətlərə fonetik-qrammatik əlamətləri də əlavə edərək türk dillərini təsnif etmişdir.

*Coğrafi əlamətlər* əsasında türk dillərinin ən mükəmməl təsnifini V.A.Boqoroditski vermişdir:

I.Şimal-şərq qrupu:yakut,tuva və karakas dilləri.

II.Xakas (Abakan) qrupu:xakas dili və dialektləri.

III.Altay qrupu:altay,teleutkumandin,qara tatar,şor dilləri.

IV.Qərbi Sibir qrupu:çulum,barabin,tumen,tobol tatarları.

V.Volqaboyu və Uralboyu qrupu:tatar və başqırd dilləri.

VI.Orta Asiya dilləri:uyğur,qazax,qırğız,özbək,qaraqalpaq dilləri.

VII.Cənub-qərb qrupu:türkmən,Azərbaycan,qumuq,qaqauz və türkmən dilləri.

*Coğrafi əlamətlər* əsasında türk dillərini alman dilçisi V.Şott iyirmi bir qrupa,fin alimi Q.Ramsdet altı qrupa bölmüşdür.Türk dillərini coğrafi əlamətlər əsasında macar tədqiqatçısı L.Ligeti də təsnif etmişdir.

Türk dillərini *tarixilik baxımından* ilk dəfə S.Y.Malov təsnif etmiş və dörd qrupa bölmüşdür:

I.Ən qədim türk dilləri:bulqar,sarı uyğur,çuvaş,yakut.

II.Qədim tük dilləri:oğuz (qədim türk runik yazısı),tofa,tuva,uyğur (qədim uyğur yazısı),xakas,şor.

III.Yeni türk dilləri:Azərbaycan,qaqauz,kumandin,qıpçaq,peçeneq,poloves,salar,türk, türkmən,uyğur,özbək,cığatay,çulum.

IV.Ən yeni türk dilləri:başqırd,qazax,qaraqalpaq,qırğız,noqay,oyrot (Dağlıq Altay), tatar (Kazan,kasimov,Mişar,Qərbi Sibir,çuvaş,yakut.

Türk dillərinin tarixilik baxımından təsnif olunmasında K.Qrönberq heç də az rol oynamaışdır.O,türk dillərini üç qrupda cəmləşdirmişdir:

I.Qədim türkcə:Orxon (Göytürklər),uyğur.

II.Orta türkcə:Kaşğar (qaraxanlı), cağatay ,kuman,qədim osmanlı.

III.Yeni türkcə:cənub türkləri(osmanlı,Azərbaycan,türkmən),qərb türkləri (özbək, Xivə türkləri),şərq türkləri (Kaşğar,komul,Turfan,tarancı),şimal türkləri (altay, Abakan, soyon,uryanxay),qıpçaq türkləri (qırğız,Qazan tatarları,başqırd,karaim).

N.A.Baskakov türk dillərinin fonetik,leksik və qrammatik xüsusiyyətlərini nəzərə alaraq sonralar bütün türkoloqlar tərəfindən rəğbətlə qarşılaşmış bir bölgü vermişdir.O,türk dillərini tarixilik baxımından da izləyərək iki böyük qrupa bölmüşdür:

I.Qərbi hun qrupu dilləri; II.Şərqi hun qrupu dilləri.

A.Qurbanov bu bölgünü N.A.Baskakova əsaslanaraq belə vermişdir:

I.Türk dillərinin qərbi hun budağı:

1.Bulqar dilləri qrupu;

2.Oğuz dillər qrupu:a) oğuz-türkmən yarımqrupu; b) Oğuz-bulqar yarımqrupu; c) Oğuz-səlcuq yarımqrupu.

3.Qıpçaq dillər qrupu: a) Qıpçaq-poloves yarımqrupu; b) Qıpçaq-bulqar yarımqrupu; c) Qıpçaq-noqay yarımqrupu.

4.Qarlur dillər qrupu: a) Qarluq-uyğur yarımqrupu; b) Qarluq-Xarəzm yarımqrupu.

II.Türk dillərinin şərqi hun budağı:

1.Uyğur-oğuz dilləri qrupu: a) Uyğur-tukyu yarımqrupu; b) Yakut yarımqrupu; c) Xakas yarımqrupu.

2.Qırğız dillər qrupu.

F.Zeynalovun təsnifi daha ümumiləşdirici,eyni zaman türk dillərini səciyyələndirən bölgüdür.Bu bölgüdə türk dilləri aşağıdakı kimi təsnif edilmişdir:

I.Oğuz qrupu:Azərbaycan,türkmən,türk,qaqauz,Krım tatar dilləri;

II.Bulqar qrupu:tatar,başqırd,qaraçay-balkar,qumuq,karaim dilləri;

III.Qıpçaq qrupu:qazax,qaraqalpaq,qırğız,altay,noqay dilləri;

IV.Karluq-uyğur qrupu:özbək,yeni uyğur,sarı uyğur,salar dilləri;

V.Uyğur-oğuz qrupu:tuva,karakas,xakas,komandin,şor,kuyerik,tobol,barabin dilləri;

VI.Çuvaş dili;

VII.Yakut dili.

**Ədəbiyyat**

1. A.Qurbanov.Dünyanın dil ailələri.Bakı,1994

2. B.Xəlilov.Türkologiyaya giriş.Bakı,"Bakı Çap Evi",2013

3.M.Yusifov.Türkologiyaya giriş.Bakı,2001